*Azərbaycan Respublikası ədliyyə nazirinin*
*30 noyabr 2007-ci il tarixli 42-T nömrəli*
əmri ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Cəzaların icrasına nəzarət üzrə müfəttişliyi haqqında

# Ə S A S N A M Ə

## I. Ümumi müddəalar

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Cəzaların icrasına nəzarət üzrə müfəttişliyi (bundan sonra–Müfəttişlik) Azərbaycan Respublikası Ədliyyə Nazirliyi mərkəzi aparatının idarə səlahiyyətli müstəqil struktur qurumudur.

2. Müfəttişlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstıtusıyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsini, «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə»ni, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, həmçinin Azərbaycan Respublikası Ədliyyə Nazirliyi (bundan sonra-Nazirlik) kollegiyasının qərarlarını, Nazirlik üzrə əmr və sərəncamları, habelə bu Əsasnaməni rəhbər tutur.

3. Müfəttişlik fəaliyyətini Nazirliyin Penitensiar xidməti, İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsi, Nazirliyin sisteminə daxil olan digər qurumlar, aidiyyəti dövlət orqanları, qeyri-hökumət təşkilatları ilə əlaqəli həyata keçirir.

4. Müfəttişlik müvafiq ştamplara malikdir.

## II. Müfəttişliyin fəaliyyət istiqamətləri

5. Müfəttişliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

5.1. penitensiar müəssisələrin cəzaların icrası ilə bağlı fəaliyyətinə nəzarət edir;

5.2. məhkumların cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların icrasına nəzarət edir;

5.3. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## III. Müfəttişliyin vəzifələri

6. Müfəttişlik bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

6.1. cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinə, cəzaların icrası və həbsdə saxlama zamanı normativ hüquqi aktların tələblərinə, o cümlədən cəzaların çəkilməsi şərtlərinə əməl olunmasına nəzarət etmək;

6.2. azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrasına, azadlıqdan məhrumetmə, ömürülük azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması növündə cəzalara məhkum olunmuş, habelə barələrində həbs qətimkan tədbiri seçilmiş şəxslərin müəyyən edilmiş qaydada saxlanması, mühafizəsi və müşayiət olunması işinə nəzarət etmək;

6.3. şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində nəzarətin təşkili vəziyyətini öyrənmək;

6.4. cəzanı icra edən müəssisə və orqanlar tərəfindən məhkumların hüquq və azadlıqlarının qorunması, onlara islah edilmə vasitələrinin tətbiqi vəziyyətini öyrənmək;

6.5. əfv və amnistiya aktlarının vaxtında və düzgün icra olunmasına nəzarət etmək;

6.6. penitensiar müəssisələrdə və həbsdə saxlama yerlərində işgəncələrin və pis rəftarın qarşısının alınması məqsədilə keçirilən tədbirlərdə iştirak etmək;

6.7. məhkumlar və təqsirləndirilən şəxslər haqqında statistik məlumatları toplmaq, ümumiləşdirmək və təhlil etmək;

6.8. cəzaları icra edən müəssisə və orqanlarda, istintaq təcridxanalarında baş vermiş hadisələrlə bağlı xüsusi məlumatları ümumiləşdirmək və təhlil etmək;

6.9. aidiyyəti dövlət proqramlırının və inkişaf konsepsiyalarının yerinə yetirilməsi üçün tədbirlər görmək;

6.10. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini səlahiyyətləri daxilində təmin etmək;

6.11. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrası ilə bağlı cəzaların icrası məsələləri üzrə beynəlxalq təşkilatlara təqdim olunan dövri hesabatların hazırlanmasında iştirak etmək;

6.12. Azərbaycan Respublikasının cəzaların icrası sahəsində beynəlxalq öhdəliklərindən irəli gələn vəzifələrini, üzv olduğu beynəlxalq, digər təşkilatların cəzaların icrası məsələlərinə dair tövsiyələrini təhlil etmək və müvafiq təkliflər hazırlamaq;

6.13. Müfəttişliyin fəaliyyəti istiqamətləri üzrə, habelə cəzaların icrası sahəsində mütərəqqi beynəlxalq təcrübəni öyrənmək, onun tətbiqi ilə bağlı müvafiq təkliflər vermək;

6.14. vətəndaşların, penitensiar müəssisələrdə saxlanılan şəxslərin qəbulunu həyata keçirmək, Müfəttişliyin səlahiyyətlərinə aid məsələlər üzrə müraciətlərə, o cümlədən cəzaları icra edən müəssisə və orqanlarının işçilərinin hərəkətlərindən (hərəkətsizliyindən) verilmiş şikayətlərə baxmaq;

6.15. hüquqi maarifləndirmə işində iştirak etmək;

6.16. fəaliyyəti ilə bağlı ictimai maraq kəsb edən məlumatları kütləvi informasiya vasitələri, habelə Nazirliyin mətbu nəşrləri və internet səhifəsi vasitəsilə yaymaq;

6.17. fəaliyyət istiqamətləri üzrə və Nazirliyin rəhbərliyinin tapşırıqları əsasında digər vəzifələri yerinə yetirmək.

## IV. Müfəttişliyin hüquqları

7. Müfəttişlik öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

7.1. cəzaları icra edən müəssisə və orqanlarda, istintaq təcridxanalarında səlahiyyətlərinə aid məsələlər üzrə yoxlamalar aparmaq, qanun pozuntuları aşkar edildikdə, tədbirlər görülməsi üçün Nazirliyin rəhbərliyinə təkliflər vermək;

7.2. dövlət orqanlarına, dövlət və qeyri-dövlət təşkilatlarına, Nazirliyin sisteminə daxil olan qurumlara müraciət etmək, onlara sorğular vermək və məlumatlar almaq;

7.3. vəzifələrini yerinə yetirərkən, əvvəlcədən xəbərdarlıq etmədən, maneəsiz penitensiar müəssisələrə daxil olmaq, orada saxlanılan şəxslərlə görüşüb, təkbətək söhbət etmək və onların həmin yerlərdə saxlanılması ilə bağlı sənədlərlə tanış olmaq;

7.4. zərurət yarandıqda araşdırılan məsələlər ilə bağlı cəzaları icra edən müəssisə və orqanlar, istintaq təcridxanaları, o cümlədən onların fəaliyyətinə bilavasitə rəhbərliyi həyata keçirən qurumlar tərəfindən aparılan yoxlama və təhqiqat materiallarını, digər zəruri məlumatları və sənədləri tələb etmək;

7.5. cəzaları icra edən müəssisə və orqanların, istintaq təcridxanalarının işçilərindən, habelə onların fəaliyyətinə bilavasitə rəhbərliyi həyata keçirən qurumların vəzifəli şəxslərindən, cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının mühafizəsini, məhkumların və həbsdə saxlanılan şəxslərin müşayətini həyata keçirən ədliyyə işçilərindən və hərbi qulluqçulardan, habelə məhkumlardan izahat və arayış almaq;

7.6. Nazirliyin müvafiq qurumları ilə birlikdə, cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi işinin əlaqələndirilməsində iştirak etmək;

7.7. cəzaların icrası ilə bağlı məsələlərin, o cümlədən Müfəttişlik tərəfindən aparılmış yoxlamaların, ümumiləş-

dirmələrin və təhlillərin nəticələrinin penitensiar və məhkəmə icraçıları xidmətlərində müzakirəsində iştirak etmək, təkliflər vermək;

7.8. cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinə ictimai nəzarətin nəticələrinin müzakirəsində iştirak etmək, aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün təkliflər vermək;

7.9. cəzaların icrası sahəsində yol verilən pozuntuları təhlil etmək, onların baş vermə səbəblərinin aradan qaldırılması üçün təkliflər vermək;

7.10. cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında məhkumların tibbi təminatının vəziyyətini öyrənmək və bu sahədə təkliflər vermək;

7.11. cəzaları icra edən müəssisə və orqanların, istintaq təcridxanalarının fəaliyyətinin təkmilləşdirilməsinə, cəzaların icrası işinin səmərəliliyinin artırılmasına dair təkliflər hazırlamaq;

7.12. cəzaları icra edən müəssisə və orqanların, istintaq təcridxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsi üçün təkliflər vermək;

7.13. cəzaları icra edən müəssisə və orqanların, istintaq təcridxanalarının işçilərinin peşə hazırlığının artırılması işinin təşkili, onların tədris kurslarına və treninqlərə cəlb olunması barədə təkliflər vermək;

7.14. öz səlahiyyətlərinə aid məsələlərlə bağlı qeyri-hökumət təşkilatları, beynəlxalq qurumlar, xarici dövlətlərin müvafiq dövlət orqanları ilə əməkdaşlıq etmək;

7.15. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən olunmuş qaydada öz fəaliyyətinə cəlb etmək;

7.16. Müfəttişliyin fəaliyyət istiqamətləri üzrə, habelə cəzaların icrası sahəsinə aid olan qanunvericilik aktlarının layihələrinə rəy vermək, müvafiq normativ hüquqi aktların layihələrini hazırlamaq;

7.17. cəzaların icrasını, habelə cəzaların icrasına nəzarəti tənzimləyən normativ hüquqi aktların yeni qəbul olunmuş qanunvericiliyə uyğunlaşdırılması barədə təkliflərin hazırlanmasında iştirak etmək;

7.18. Müfəttişliyin fəaliyyət istiqamətlərinə uyğun məsələlər üzrə rəylər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, təkliflər vermək;

7.19. Müfəttişliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirilən işin təkmilləşdirilməsinə dair təkliflər vermək;

7.20. vəzifələrinin icrası ilə əlaqədar digər hüquqları həyata keçirmək.

## V. Müfəttişliyin fəaliyyətinin təşkili

8. Müfəttişliyin strukturu və ştat vahidlərinin sayı Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən təsdiq olunur.

9. Müfəttişliyə Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir. Rəis Müfəttişliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

10. Müfəttişliyin rəisinin Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır. Müfəttişliyin rəis müavini ona həvalə olunmuş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

11. Müfəttişliyin rəis müavini və işçiləri öz funksiyalarını vəzifə və iş bölgüsünə əsasən yerinə yetirirlər.

12. Müfəttişliyin işi fəaliyyət istiqamətləri üzrə, habelə Nazirliyin və Müfəttişliyin iş planları əsasında həyata keçirilir.

13. Müfəttişlikdə işin təşkili və vəziyyəti, qarşıda duran vəzifələr mütəmadi olaraq əməliyyat müşavirəsində müzakirə edilir.

14. Müfəttişliyin rəisi:

14.1. Müfəttişliyin işini təşkil edir və onun fəaliyyətinə rəhbərliyi həyata keçirir;

14.2. Müfəttişliyin işçiləri arasında vəzifə və iş bölgüsü aparır;

14.3. Müfəttişliyin işçilərinin üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə, icra və əmək intizamına nəzarət edir;

14.4. Müfəttişliyin iş planını və müvafiq hesabatlarını təsdiq edir, iş planının vaxtında və keyfiyyətli icrasına nəzarəti həyata keçirir;

14.5. Müfəttişliyin fəaliyyətini Nazirliyin sisteminə daxil olan struktur qurumlarla əlaqələndirir;

14.6. Müfəttişliyin fəaliyyəti ilə bağlı məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılması üçün təşəbbüs göstərir, bu məsələlərin kollegiyanın müzakirəsinə hazırlanmasını təmin edir;

14.7. Nazirliyin iş planında və kollegiyasının qərarlarında, Nazirlik üzrə əmr və sərəncamlarda nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

14.8. Müfəttişliyə yeni qəbul edilmiş işçiləri təcrübəli əməkdaşlara təhkim edir və onların işinə bilavasitə nəzarət edir;

14.9. zəruri hallarda böyük həcmli tapşırıqların icrasını bir neçə işçiyə tapşırır və ya bir işçinin icraatından digər işçinin icraatına verir;

14.10. Müfəttişlikdə işçilərin vəzifəyə təyin və vəzifədən azad edilməsi, həvəsləndirilməsi, onlara xüsusi rütbə və ixtisas dərəcələrinin verilməsi, intizam tənbeh tədbirlərnin tətbiq olunması, habelə işçilərin vəzifədən kənarlaşdırılması ilə bağlı Nazirliyin rəhbərliyinə təkliflər verir;

14.11. Müfəttişliyin fəaliyyətinin təkmilləşdirilməsi sahəsində tədbirlər görür, bu barədə Nazirliyin rəhbərliyinə təkliflər verir;

14.12. səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini müavininə tapşırır;

14.13. vətəndaşları qəbul edir;

14.14. səlahiyyətləri daxilində digər məsələləri həll edir;

14.15. xidməti fəaliyyətlə əlaqədar Nazirliyin rəhbərliyinin tapşırıqlarını yerinə yetirir.

15. Müfəttişliyin rəis müavini:

15.1. azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrasına nəzarəti təşkil edir;

15.2. azadlıqdan məhrumetmə, ömürülük azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması növündə cəzaların icrasına nəzarəti təşkil edir;

15.3. əfv və amnistiya aktlarının vaxtında və düzgün icra olunmasına nəzarəti təşkil edir;

15.4. məhkumlar və təqsirləndirilən şəxslər haqqında statistik məlumatları toplayır, ümumiləşdirir və təhlil edir;

15.5. Azərbaycan Respublikasının cəzaların icrası sahəsində beynəlxalq öhdəliklərindən irəli gələn vəzifələrini, üzv olduğu beynəlxalq, digər təşkilatların cəzaların icrası məsələlərinə dair tövsiyələrini təhlil edir və müvafiq təkliflər hazırlayır;

15.6. Müfəttişlikdə kargüzarlıq işini təşkil edir;

15.7. Müfəttişliyin işçilərini icraatında olan sənədlərin düzgün və vaxtında icra olunmasını təmin edir;

15.8. Müfəttişliyin fəaliyyəti ilə bağlı məsələləri Nazirliyin kollegiyasının müzakirəsinə hazırlayır;

15.9. Müfəttişliyin işçilərini cəlb etməklə ümumiləşdirmələr aparır, Müfəttişliyin fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər hazırlayır;

15.10. Müfəttişliyin iş planının layihəsini, statistik və digər hesabatlarını hazırlayır;

15.11. Müfəttişliyin iş planın vaxtında və keyfiyyətli icrasını təşkil edir;

15.12. vətəndaşları qəbul edir;

15.13. Müfəttişliyin rəisi vəzifələrini icra edə bilmədikdə onun vəzifələrini yerinə yetirir;

15.14. ona tapşırılmış sahədə işin düzgün təşkil və icra edilməsini təmin edir;

15.15. peşə hazırlığının yüksəldilməsi məqsədilə qanunvericiliyi daim öyrənir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır;

15.16. xidməti fəaliyyətlə əlaqədar Nazirliyin rəhbərliyinin və Müfəttişliyin rəisinin tapşırıqlarını yerinə yetirir.

16. Baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi və məsləhətçi:

16.1. Müfəttişliyin səlahiyyətlərinə aid məsələlər üzrə sənədlərə və müraciətlərə baxır, müvafiq tədbirlər görülməsi üçün təkliflər verir;

16.2. Müfəttişliyin fəaliyyət istiqamətlərinə dair məsələlər üzrə rəylər, analitik materiallar və müvafiq təkliflər hazırlayır, təhlillər və ümumiləşdirmələr aparır, müsbət təcrübənin yayılması üçün təkliflər verir;

16.3. Müfəttişliyin fəaliyyət istiqamətləri üzrə, habelə cəzaların icrası sahəsinə aid olan qanunvericilik aktlarının layihələrinə dari rəylər tərtib edir, müvafiq normativ hüquqi aktların layihələrini hazırlayır;

16.4. cəzaların icrasını, habelə cəzaların icrasına nəzarəti tənzimləyən normativ hüquqi aktların yeni qəbul olunmuş qanunvericiliyə uyğunlaşdırılması barədə təkliflər hazırlayır;

16.5. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrası ilə əlaqədar cəzaların icrası məsələləri ilə bağlı beynəlxalq təşkilatlara təqdim olunan dövri hesabatların hazırlanmasında iştirak edir;

16.6. Müfəttişliyin fəaliyyəti istiqamətləri üzrə, habelə cəzaların icrası sahəsində mütərəqqi beynəlxalq təcrübəni öyrənir, onun tətbiqi ilə bağlı müvafiq təkliflər verir;

16.7. hüquqi maarifləndirmə işində iştirak edir;

16.8. Müfəttişliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq, vəzifə və iş bölgüsünə əsasən digər vəzifələri icra edir;

16.9. qüvvədə olan qanunvericiliyi daim öyrənir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır, əmək və icra intizamına əməl edir, vəzifələrinin vaxtında və düzgün icra edilməsinə görə məsuliyyət daşıyır;

16.10. xidməti fəaliyyətlə əlaqədar Müfəttişliyin rəhbərliyinin tapşırıqlarını yerinə yetirir.

17. Məsləhətçi (kompüter üzrə):

17.1. daxil olan müraciətlər və xidməti fəaliyyətlə bağlı digər informasiyalar üzrə məlumat bazaları yaradır və bu bazaları aktual saxlayır;

17.2. Müfəttişliyin rəhbərliyinin tapşırığına əsasən məlumat bazalarında olan informasiyaları təsnifatlaşdıraraq onlara təqdim edir;

17.3. məlumat bazalarının mühafizəsini təmin edir, mütamadi olaraq məlumat bazalarının sığorta nüsxələrini yaradır;

17.4. informasiya texnologiyalarını daim öyrənir, Müfəttişlikdə informasiya texnologiyalarının səmərəli istifadəsinə dair tədbirlər görür, bu barədə Müfəttişliyin rəhbərliyinə təkliflər verir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır, əmək və icra intizamına əməl edir, vəzifələrinin vaxtında və düzgün icra edilməsinə görə məsuliyyət daşıyır;

17.5. xidməti fəaliyyətlə əlaqədar Müfəttişliyin rəhbərliyinin tapşırıqlarını yerinə yetirir.

18. Baş mütəxəssis (böyük inspektor):

18.1. daxil olan sənədləri və müraciətləri Nazirliyin Katibliyindən götürür və onların qeydiyyatını aparır;

18.2. daxil olan sənədləri Müfəttişliyin rəisinə təqdim edir, onun dərkənarına əsasən sənədləri icraçılara təqdim edir;

18.3. sənədlərin qanunvericiliklə nəzərdə tutulmuş müddətlərdə icra olunmasını nəzarətdə saxlayır, onların icra müddətinin gözlənilməsi ilə bağlı Müfəttişliyin rəisinə məlumat təqdim edir;

18.4. sənədlərin icraçılar tərəfindən icra edilməsinin qeydiyyatını aparır, göndərilməsi üçün Nazirliyin Katibliyinə təqdim edir;

18.5. icra olunmuş sənədlərin səliqə ilə işə tikilməsini və Müfəttişliyin dəftərxanasında saxlanılmasını təmin edir;

18.6. hüquqi şəxslərin və vətəndaşların müraciətlərini ümumiləşdirir, Müfəttişliyin hər bir işçisinin icraatına daxil olan sənədlərin hesabatlarını toplayıb Müfəttişliyin rəisinə və ya onun müavininə təqdim edir;

18.7. işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır, əmək və icra intizamına əməl edir, vəzifələrinin vaxtında və düzgün icra edilməsinə görə məsuliyyət daşıyır;

18.8. xidməti fəaliyyətlə bağlı Müfəttişliyin rəhbərliyinin digər tapşırıqlarını yerinə yetirir.